Azərbaycan işıqları

“Azərenerji” ASC-nin orqanı | 31 DEKABR 2015-ci il CÜMƏ AXŞAMI | № 51 (1126) | www.azerenerji.gov.az

Əziz energetiklər, sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il münasibətilə təbrik edirik!

BAYRAMINIZ MÜBARƏK!

Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.
Heydər Əliyev

“...Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır ”.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

RƏSMİ XRONİKA

23 dekabr

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibi Aleksey Sergeyev, Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin, «Bank VTB» ASC-nin prezidenti - İdarə Heyətinin sədri Andrey Kostin, Almaniya Bundestaqının üzvü KarinŞtrents, Beynəlxalq Qara dəniz və Xəzər dənizi Əməkdaşlıq və Tərəfdaşlıq Fondunun prezidenti Çingiz Abdullayev, Həmkarlar İttifaqları Ümumi Konfederasiyasının baş katibi Vladimir Şerbakov, bp şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qordon Birrell Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə doğum günü münasibətilə , qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik məktubu göndəriblər.
- Prezident İlham Əliyev Fuad Hacıyevin Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru təyin edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının idman mütəxəssislərinə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adının verilməsi haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Kamal Kəbirlinskiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.

24 dekabr

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə paytaxtın Nərimanov rayonunda gözdən əlillər üçün inşa olunan yaşayış binası istifadəyə verilib.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edərək onu ad günü münasibətilə təbrik edib, ona xalqımızın rifahı və əmin-amanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.
- Prezident İlham Əliyev Azərbaycan xalqını 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında ikitərəfli hərbi-texniki əməkdaşlığın gedişində istifadə edilən və əldə edilmiş əqli fəaliyyətin nəticələrinə hüquqların qarşılıqlı mühafizəsi haqqında 4 dekabr 2006-cı il tarixli Sazişdə dəyişiklik edilməsi barədə 2015-ci il oktyabrın 14-də Bakı şəhərində imzalanmış Protokolun təsdiq edilməsi barədə sərəncam imzalayıb.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Prezidenti Giorgi Marqvelaşvili, Ukraynanın Prezidenti Pyotr Poroşenko, İordaniyanın Kralı II Abdullah, Monteneqronun Prezidenti Filip Vuyanoviç, Moldova Respublikasının Prezidenti Nikolaye Timofti, Moldova Respublikasının sabiq Prezidenti, Moldova Respublikası Kommunist Partiyasının sədri Vladimir Voronin, MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev dövlətimizin başçısı İlham Əliyevə doğum günü və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik məktubu göndəriblər.
- Prezident İlham Əliyev Azərbaycan Müdafiə Nazirliyinin sistemində olan xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında sərəncam verib.

25 dekabr

- Prezident İlham Əliyev Xəzər rayonunda 110 kilovoltluq «Buzovna-2», 35 kilovoltluq «Sarıqaya», «Fatmayı», «Məhəmmədi», eləcə də 221, 219, 86 və 87 saylı yarımstansiyaların açılışlarında iştirak edib.
- Prezident İlham Əliyev Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi quru qoşunları, hərbi hava qüvvələri, hava hücumundan müdafiə və hərbi dəniz qüvvələri fakültələri yaradılmaqla, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qoşulmaları haqqında sərəncam imzalayıb.

28 dekabr

- Prezident İlham Əliyev «Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin «Elmlər Akademiyası» stansiyasının ikinci çıxışının açılışında olub.
- Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Saleh Məmmədovun “Azəryolservis” Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.

29 dekabr

- Prezident İlham Əliyev Xətai rayonundakı yolların yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub.
- Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2016-cı il büdcəsi haqqında Fərman imzalayıb.

Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına - Birinci Avropa Oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata, torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 dekabr 2015-ci il.

ÖLKƏ RƏHBƏRİ ELEKTROENERGETİKA HAQQINDA... 2015

“...Son illər ərzində yaratdığımız enerji potensialı bütün sovet dövründə yaradılan potensialdan böyükdür, ondan çoxdur. Nə qədər elektrik stansiyaları yaradıldı. Onlar olmasaydı, indi bizim iqtisadi, sənaye inkişafımız mümkün olmazdı. Yəni, biz diqqəti bu sahəyə yönəltdik ki, generasiya güclərini yaradaq. Azərbaycanda həm alternativ su elektrik stansiyaları və əsas qaz elektrik stansiyaları tikilmişdir”.

İlham Əliyev
Azərbaycan Respulikasının Prezidenti
(Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən).

“...Hazırda bizdə generasiya gücü kifayət qədərdir, ancaq biz gələcəyə baxmalıyıq. Generasiya gücü həmişə tələbatdan 10-15, bəlkə də 20 faiz artıq olmalıdır. Həm ehtiyat kimi saxlamalıyıq, həm də bizim ixrac potensialımız da var. Biz elektrik enerjisinin ixracı ilə məşğuluq. Bunu gələcəkdə daha da böyük həcmdə edə bilərik. Ancaq əlbəttə ki, ilk növbədə, ölkə daxilində, xüsusilə bölgələrdə, uzaq kəndlərdə bütün enerji infrastrukturu ən yüksək səviyyədə olmalıdır”.

İlham Əliyev
Azərbaycan Respulikasının Prezidenti
(Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən).

AKTUAL MÜSAHİBƏ 2015-2016

Əli Həsənov:
“2015-ci ildə Azərbaycan mürəkkəb qlobal proseslərin təsirindən məharətlə qorunub və uğurlu inkişafını davam etdirib”

«2015-ci il Azərbaycan dövlətinin və cəmiyyətinin qarşısında duran vəzifələrin həyata keçirilməsi, daxili və xarici siyasət məsələlərinin həlli baxımından mühüm il olub. Ölkə iqtisadiyyatının inkişaf dinamikası, iqtisadi və sosial proqramların icrası, nəhəng transmilli enerji və nəqliyyat layihələrinin reallaşdırılması davam etdirilib, əhalinin sosial rifahının yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirilib, Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənib, milli təhlükəsizlik və sabitlik təmin olunub. Prezident İlham Əliyevin müstəqil, düşünülmüş və çevik siyasi kursu sayəsində Azərbaycan mürəkkəb qlobal proseslərin təsirindən məharətlə qorunub, itkilər minimuma endirilib, ölkəmiz öz uğurlu inkişafını davam etdirib». Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov 2015-ci ilin yekunları ilə bağlı AZƏRTAC-a verdiyi müsahibdə başa çatmaqda olan 2015-ci ili xarakterizə edərkən belə deyib.

Prezidentin köməkçisi bu il Milli Məclisə keçirilən seçkiləri ölkəmizin ictimai-siyasi həyatında ən mühüm hadisələrdən biri kimi səciyyələndirib. «Seçkilər tam demokratik şəraitdə keçirilib və Azərbaycan xalqının iradəsini əks etdirib. Xalqın Azərbaycan Prezidentinə böyük etimadı və onun həyata keçirdiyi siyasətə hərtərəfli dəstəyi seçki prosesinin nəticəsinə təsir göstərən mühüm amil olub»,- deyə Ə.Həsənov bildirib.

O, dünya bazarında enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı 2015-ci ildə qarşıya qoyulmuş vəzifələrin uğurla icra olunduğunu qeyd edrək deyib: «Statistikaya əsasən, bu ilin 11 ayında Azərbaycanda iqtisadi artım 3,1 faiz, ölkə üzrə ümumi daxili məhsul istehsalı 50 milyard dollar təşkil edir. Əlamətdar haldır ki, bu artım əsasən qeyri-neft sektorunun hesabına əldə olunub. 2015-ci ildə qeyri-neft iqtisadiyyatı 4 faizdən çox yüksəlib və onun iqtisadiyyatda çəkisi 70 faizə çatıb. İl ərzində sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 7,7 faiz artıb».

(Ardı 2-ci səhifədə)

31 DEKABR – DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR 2015-2016

Milli Məclisin dünya azərbaycanlalarına müraciəti

Milli Məclisin 2015-ci il 29 dekabr tarixli iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Müraciət qəbul edilib.

Müraciətdə deyilir: Xalqımızın milli-mənəvi bütövlüyünə nail olmaq üçün ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə iyirmi dörd il bundan əvvəl başlanmış hərəkat ildən-ilə daha geniş vüsət almaqdadır. Bu gün azərbaycanlılar milli mənlik şüuru əsasında sıx birləşməyin zəruriliyini daha aydın dərk edirlər. Azərbaycan diasporu və icmaları inkişaf edib möhkəmlənir, soydaşlarımızın siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işinə daha yaxından cəlb olunurlar.

Müraciətdə qeyd olunur ki, müasir dünyada cərəyan edən qlobal proseslər ciddi problemlərin yaranmasına səbəb olur, bir sıra hallarda xalqların tarix səhnəsində oynadıqları rolun yenidən dəyərləndirilməsinə gətirib çıxarır. Həyat sübut edir ki, yalnız öz gücünü bir yerə toplamağı bacaran xalqlar etnik-siyasi hüquqlarını həyata keçirmək və milli mənafelərini müdafiə etmək imkanlarını qoruyub artıra bilirlər. Bəşər sivilizasiyasının inkişafına əvəzsiz töhfələr vermiş Azərbaycan xalqının davamlı yüksəlişinin yolu on milyonlarla soydaşımızın və həmvətənimizin məhz mütəşəkkil qüvvə kimi formalaşmasından keçir.

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının tarixi və doğma Vətəni, ümid və istinad yeridir. Odur ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ardıcıl və dinamik inkişaf etməsini, ildən-ilə daha güclü dövlətə çevrilməsini qeyd edir. Azərbaycanın beynəlxalq nüfuzunun ildən-ilə daha da yüksəlməsi, yerləşdiyi bölgədə və onun hüdudlarından kənarda söz sahibi olması isə soydaşlarımızın və həmvətənlərimizin qəlbini qürur hissi ilə doldurur.

Dünya ölkələrində yaşayan soydaşlarımız Azərbaycanın əldə etdiyi nailiyyətlərə öz uğurları kimi sevinir, eyni zamanda, Vətənimizin taleyüklü problemlərinin həll ediləcəyinə, o cümlədən ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına, bir milyondan çox qaçqın və köçkünümüzün doğma yurd-yuvasına dönəcəyinə qətiyyətlə inanırlar. Qarabağ dərdi bütün millətimizin ağrılı yeridir, odur ki, bu problemin həllinə elliklə kömək göstərilməsi zəruridir. Yalnız dünya azərbaycanlılarının birgə səyləri dövlətimizin və xalqımızın inkişafı yolundakı bu maneənin aradan qaldırılmasına öz müsbət təsirini göstərə bilər. Yer kürəsinin hansı guşəsində yaşayıb-işləməsindən asılı olmayaraq bütün soydaşlarımızın Vətən qarşısında övladlıq borcu Ermənistanın ölkəmizə təcavüzünün nəticələrinin aradan qaldırılması naminə qüvvələri birləşdirməkdən, Azərbaycanın haqq işini müdafiə etməkdən ibarətdir.

Azərbaycanlıların bir vəzifəsi də xalqımızın qədim adət-ənənələrini, dilini, mədəniyyətini yaşatmaq, hər sahədə bir-birinə dəstək olmaqdır. Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi olaraq davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır.

Milli Məclis soydaşlarımızı milli-mənəvi birliyimizi daha da möhkəmləndirməyə çağırır, xalqımızın hüquq və mənafelərinin qorunması uğrunda mübarizədə səyləri artırmağa səsləyir. Müraciət bu sözlərlə yeknlaşır: “Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə xoşbəxtlik və ailə səadəti, doğma Azərbaycanımıza əmin-amanlıq, qələbə sevincləri və nurlu gələcək arzulayırıq!”

Azərbaycan Prezidenti İlham Əliyev Xəzər rayonunda bir neçə yarımstansiyanın açılışında iştirak edib

♦ Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər rayonunda 110 kilovoltluq "Buzovna-2", 35 kilovoltluq "Sarıqaya", "Fatmayı", "Məhəmmədi", eləcə də 221, 219, 86 və 87 saylı yarımstansiyaların açılışlarında iştirak edib.

AZƏRTAC-ın məlumatına görə, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlətimizin başçısına məlumat verib ki, 110/35/10 kilovoltluq "Buzovna-2" yarımstansiyası 110/10 kilovoltluq "Buzovna dartı" yarımstansiyasının yerində inşa olunub. Beynəlxalq tələblərə cavab verən yeni energetika qurğusunun inşaat işləri zamanı milli memarlıqla beynəlxalq təcrübənin elementləri yüksək peşəkarlıqla uzlaşdırılıb. Ərazidə əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb, yüksək keyfiyyətli asfalt salınıb. Ən müasir standartlar səviyyəsində icra olunan bu cür layihələr ölkəmizdə yenidənqurma tədbirlərinin ardıcıl olaraq keyfiyyətlə həyata keçirildiyini bir daha göstərir.

Yarımstansiyanın girişində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkənin elektroenergetika sisteminin, o cümlədən ötürücü və paylayıcı şəbəkənin hərtərəfli inkişafı üçün həyata keçirdikləri silsilə layihələri əks etdirən fotoguşələr yaradılıb. "Buzovna-2" yarımstansiyası Buzovna, Zuğulba, Albalılıq qəsəbələrini, bir sıra dövlət əhəmiyyətli qurumları, həmçinin istirahət, turizm, tibb və digər obyektləri fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edir. Yarımstansiyada hər birinin gücü 40 meqavoltamper olan transformatorlar quraşdırılıb. Bu energetika qurğusu ən müasir elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatlaşdırılmış sistem, ölkəmizdə istehsal olunan güc transformatorları və reaktorlarla təchiz edilib. Yarımstansiyada işçilər üçün hər cür şəraiti olan otaqlar tikilib. Paylayıcı qurğular son elmi-texniki yeniliklər əsasında qurulub. İdarəetmə mərkəzində də ən müasir avadanlıqlar quraşdırılıb. Qeyd edək ki, yeni yarımstansiya ən son elmi-texniki yeniliklərə əsaslanan "eleqaz", "vacuum" tipli və digər avadanlıqlarla təchiz edilməklə yanaşı, məsafədən idarə olunan SCADA dispetçer sisteminə də qoşulub.

Dövlətimizin başçısına animasiya, sxemlər, dron çəkilişlər, qrafiklər və digər əyani vasitələr əsasında paytaxtda və regionlarda görülən işlər barədə də məlumat verildi. Qeyd edildi ki, ötən qısa müddətdə 7 regional idarəetmə strukturu formalaşdırılıb və ölkəmizin bölgələrində böyük həcmdə yenidənqurma tədbirləri həyata keçirilib.

Yeni "Buzovna-2" yarımstansiyası Xəzər rayonunun böyük bir hissəsinin elektrik enerjisi təchizatının yaxşılaşdırılması, ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi, 110 və 35 kilovoltluq elektrik şəbəkələrinin əlaqələndirilməsi işlərində mühüm rol oynayacaq. Bu yarımstansiyanın inşası Abşeron yarımadasındakı 110 kilovoltluq paylayıcı şəbəkələrin şimal bölgəsi ilə əlaqələndirilməsi planının ilk mərhələsini təşkil edir. Belə ki, yeni yarımstansiyanın hesabına "Şimal", "Təmiz şəhər", "Sumqayıt" elektrik stansiyalarının, həmçinin 220 kilovoltluq "Zabrat" və "Sənaye qovşağı" yarımstansiyalarının əlaqələndirilməsi ilə 110 kilovoltluq elektrik təchizatı sxeminin etibarlılığı artır. "Buzovna-2" yarımstansiyası mövcud 35 kilovoltluq şəbəkə üçün mənbə olduğundan 35 kilovoltluq dairəvi sxemə aid yarımstansiyaları əlaqələndirəcək. Bu da öz növbəsində mövcud 35 kilovoltluq yarımstansiyalar arasında dairəvi elektrik təchizatı sxeminin, həmçinin elektrik şəbəkələrinin dayanıqlı iş rejiminin formalaşdırılmasına şərait yaradacaq. Şimal bölgəsi ilə əlaqələndirmə planının ilkin mərhələsi çərçivəsində perspektivdə nəzərdə tutulan işlərin yekunlaşması üçün 110/35/10 kilovoltluq "Buzovna-1" və "Buzovna-2" yarımstansiyaları arasında ikidövrəli kabel xətləri çəkiləcək. Ümumilikdə, "Buzovna-2" yarımstansiyası paytaxtın və ölkənin elektrik şəbəkəsinə mühüm töhfədir.

Sonra Prezident İlham Əliyevə açılışı olan 35 kilovoltluq yarımstansiyalar barədə məlumat verilib.

Dövlətimizin başçısı "Buzovna-2" yarımstansiyasını işə salıb.

Ötən illərin reallıqları göstərdi ki, bütün bu cür silsilə və kompleks xarakter daşıyan layihələrin reallaşdırılmasında Azərbaycan dövləti hərtərəfli dəstəyini əsirgəməyib. Prezident İlham Əliyevin təbirincə desək, "Strateji obyekt dövlətin əlində olanda burada nəzarət də, investisiya da və inkişaf da olacaq". Ötən dövrün təcrübəsi bu danılmaz həqiqəti birmənalı şəkildə təsdiqlədi. Bu baxımdan paytaxtın, eləcə də ölkəmizin bütün regionlarının etibarlı, dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatı məqsədilə nəzərdə tutulan layihələrin də tezliklə uğurla həyata keçiriləcəyini tam əminliklə söyləmək olar.

Prezident İlham Əliyev aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında sərəncam imzalayıb

♦ Azərbaycan Prezidenti İlham Əliyev aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında sərəncam imzalayıb.

Dövlətimizin başçısı Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıb:

1. 2015-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə 50 (əlli) manat məbləğində birdəfəlik yardım ödənilsin.

2. Birdəfəlik yardımın maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5,3 milyon (beş milyon üç yüz min) manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik yardımın ünvanlı dövlət sosial yardımı alan ailələrin hesablarına köçürülməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Milli Məclisin payız sessiyasının son iclası keçirilib

♦ Dekabrın 29-da Azərbaycan Respublikası Milli Məclisinin payız sessiyasının son iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov iclası açdıqdan sonra gündəlik təsdiq edilib.

Sonra cari məsələlər müzakirə edilib.

Deputatlar Prezidenti İlham Əliyev tərəfindən imzalanmış "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamın əhəmiyyətini qeyd ediblər.

İclasda Hesablama Palatası sədrinin müavininin və auditorlarının təyin edilməsi haqqında qanun layihəsi təsdiq odunub.

Milli Məclis Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında", Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında", Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında", Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" əsasnamələrdə, "Diplomatik xidmət haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Dövlət rüsumu haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Polis haqqında", "Avtomobil yolları haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Təhsil haqqında", "Bələdiyyə qulluğu haqqında" qanunlarda, Əmək, İnzibati Xətalar məcəllələrində, Mülki Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihələrini təsdiqləyib.

İclasda yeni İnzibati Xətalar Məcəlləsi də qəbul edilib. Qanun layihəsi haqqında məlumat verən deputat Vüsal Hüseynov bildirib ki, İnzibati Xətalar Məcəlləsi hər bir ölkənin hüquq sistemində məsuliyyət müəyyən edən önəmli qanunlardan biridir. Buna görə də Məcəlləyə tez-tez əlavə və dəyişikliklər edilir. Ölkəmizdə hazırkı İnzibati Xətalar Məcəlləsi 2000-ci il iyunun 11-də qəbul edilib. İndiyədək bu Məcəlləyə 280-dən çox əlavə və dəyişiklik edilib. Bu gün parlamentin müzakirəsinə təqdim edilən İnzibati Xətalar Məcəlləsi özündə bir sıra yenilikləri ehtiva edir. Məzmun, struktur baxımından təkmilləşdirilən yeni Məcəllə 608 maddə və 40 fəsildən ibarətdir. Mövcud Məcəllə ilə müqayisədə yeni sənədə 5 fəsil və 150 maddə artırılıb. Birbirini təkrarlayan, qeyri-müəyyən olan maddələr Məcəllədən çıxarılıb.

"Publik hüquqi şəxslər haqqında" qanun layihəsini ikinci və üçüncü oxunuşlarda qəbul edən deputatlar "Lisenziyalar və icazələr" haqqında Azərbaycan Respublikası qanununun layihəsinə birinci oxunuşda münasibət bildiriblər.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə deyib ki, "Lisenziyalar və icazələr" haqqında qanun layihəsi sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, maneələrin aradan qaldırılması, yeni təsərrüfat subyektlərinin yaradılması istiqamətində əhəmiyyətli nəticələr verəcək.

Sonra Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti təsdiq olunub.

Milli Məclisin sədri Oqtay Əsədov Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibətilə xalqımızı təbrik edib.

MÜSAHİBƏ 2015-2016

Əli Həsənov: "2015-ci ildə Azərbaycan mürəkkəb qlobal proseslərin təsirindən məharətlə qorunub və uğurlu inkişafını davam etdirib"

(Əvvəli 1-ci səhifədə)

Ə.Həsənov ölkədə 87 min yeni iş yeri yaradıldığını, 2004-cü ildən bu günədək açılmış yeni iş yerlərinin sayının 1,4 milyonu keçdiyini və bunun da böyük əksəriyyətinin daimi iş yerləri olduğunu diqqətə çatdırıb.

Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurları yüksək qiymətləndirdiyini vurğulayan Ə.Həsənov deyib: «Qlobal Rəqabət Qabiliyyəti hesabatında Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti səviyyəsinə görə 140 ölkə arasında 40-cı yerdə qərarlaşaraq MDB məkanında 7 ildir lider mövqeyini qoruyub, G20-yə üzv olan 8 ölkəni qabaqlayıb. Dünya Bankının hesabatına əsasən, son onillik ərzində Azərbaycan yoxsulluğun azaldılması və ümumi rifahın yüksəldilməsi istiqamətində inanılmaz irəliləyişə nail olub. Bankın hesabatında qeyd edilir ki, Azərbaycan qlobal böhranın təsirinə ən az məruz qalan dövlətlərdən olub».

Prezidentin kgməkçisi neftin qiymətinin kəskin ucuzlaşmasının, habelə manatın məzənnəsinin aşağı düşməsinin ölkədə əhalinin sosial durumuna mümkün mənfi təsiri barədə sualı belə cavablındarab: «Əksər beynəlxalq ekspertlərin fikrinə əsasən, enerji resurslarının qiymətinin aşağı düşməsi süni şəkildə stimullaşdırılan prosesdir. Bu siyasət dünyada mövcud beynəlxalq münasibətlər, təhlükəsizlik sistemini və formalaşmış iqtisadi əlaqələri ciddi şəkildə təhdid edir.

Bir tərəfdən enerji resurslarını ixrac edən ölkələrin milli gəliri azalır, digər tərəfdən isə əksər ölkələrdə milli valyutaların dəyərdən düşməsi müşahidə olunur. Azərbaycan da dünyanın bir hissəsidir, qlobal iqtisadi proseslərdən təcrid olunmayıb və buna görə həmin proseslər istər-istəməz ölkəmizə də öz təsirini göstərir.

Nəzərə alınmalıdır ki, manatın məzənnəsinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatının idarə olunmasında hər hansı problemlə bağlı deyil, dünyada gedən proseslərin ölkəyə mənfi təsiri ilə əlaqədardır. Amma cənab Prezidentin də qeyd etdiyi kimi, hakimiyyət neftin ucuzlaşması ilə bağlı yaranmış durumu Azərbaycan iqtisadiyyatı üçün bir sınaq kimi dəyərləndirir. İlin yekunları da göstərir ki, Azərbaycan bu sınaqdan çıxmağı bacarıb, yanacaq-enerji sektorunda gəlirlər azalsa belə, ölkə öz dinamik inkişafını dayandırmayıb. Əlbəttə, burada mühüm amil kimi iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi nəzərə alınmalıdır. Vaxtilə belə qərar qəbul olunmasaydı, enerji resurslarından əldə olunan gəlirlərin bir qismi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına yönəldilməsəydi, vəziyyət həqiqətən də acınacaqlı ola bilərdi. Bu, Azərbaycan Prezidentinin uzaqgörənliyini, dünyada gedən prosesləri düzgün qiymətləndirdiyini və ölkəni, cəmiyyətimizi qlobal təhdidlərdən etibarlı şəkildə qorumaq üçün vaxtında lazımi tədbirlər həyata keçirdiyini əyani şəkildə təsdiq edir.

Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Sosial istiqamət həmişə prioritet olub, dünyada yaşanan iqtisadi təbəddülatların Azərbaycan əhalisinin rifahına ciddi təsir etməməsi üçün lazımi önləyici addımlar atılıb. Məhz buna görə də il ərzində sosial proqramların icrasında ləngimə olmayıb. Bu il əhalinin pul gəlirləri 5,8 faiz artıb. Sosial infrastrukturun yaradılmasına ayrılmış vəsait hesabına ölkədə 34 məktəb, 26 uşaq bağçası tikilib və ya əsaslı şəkildə təmir edilib. Son illər ərzində ölkə üzrə müasir standartlara uyğun tikilmiş və ya əsaslı təmir olunmuş tibb müəssisələrinin sayı 500-ü keçib. Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması üçün irimiqyaslı layihələr davam etdirilib.

Bu gün ölkədə 114 min ailə və ya 500 minə yaxın insan ünvanlı sosial yardım alır. Hər ailəyə dövlət tərəfindən orta hesabla ayda 153 manat yardım göstərilir.

Qeyd edilməlidir ki, devalvasiya sosial baxımdan mənfi haldır və təbii olaraq vətəndaşların maddi durumuna öz mənfi təsirini göstərir. Bununla yanaşı, Azərbaycan hakimiyyəti bu prosesi öz axarına buraxmayıb və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri tədbirlər həyata keçirib, bu məqsədlə müvafiq tənzimləyici mexanizmlərdən istifadə edib. Daxili istehsalın stimullaşdırılması, korrupsiya, rüşvətxorluq və digər bu kimi hallara qarşı mübarizənin gücləndirilməsi, sahibkarların fəaliyyətinə hərtərəfli dəstək, həmçinin bəzi şəxslərin mövcud situasiyadan öz mənafeyi naminə sui-istifadə cəhdlərinin qarşısının alınması, müvafiq dövlət orqanlarının bu prosesi ciddi nəzarətə götürməsi və s. tədbirlər məqsədyönlü şəkildə davam etdirilir».

Birinci Avropa Oyunlarının əhəmiyyətini qiymətləndirən Ə.Həsənov qeyd edib ki, Azərbaycan bu Oyunları uğurla keçirməklə dünya idman tarixində yeni bir səhifə açdı. O, Bakının 2017-ci ildə İslam Həmrəylik Oyunlarını qəbul etməyə hazırlaşdığını vurğulayaraq deyib: «Bu, Azərbaycanın dünyada necə nadir bir missiya daşımasının əyani ifadəsidir: Azərbaycan artıq mədəniyyətlərin, dinlərin, fərqli geosiyasi qütblərin əməkdaşlıq məkanı kimi qəbul olunur».

Ə.Həsənov 2015-ci ildə Azərbaycanın ev sahibliyi etdiyi digər mühüm beynəlxalq tədbirlərin, həmçinin müstəqillik tarixində ilk dəfə olaraq "Böyük İyirmiliyin" Sammitinə dəvət olunmasının əhəmiyyətindən də danışıb.

O, 2015-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ciddi irəliləyiş müşahidə olunmadığını qeyd edərək, bunun da başlıca səbəblərinin, bir tərəfdən, Ermənistanın destruktiv mövqeyi, mövcud status-kvonu qoruyub saxlamaq cəhdləri, digər tərəfdən də, bilavasitə münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu həmsədrlərinin qətiyyətsiz mövqeyi ilə əlaqəli olduğunu bildirib.

Hazırda istər sosial-iqtisadi, istərsə də hərbi sahədə Azərbaycanın potensial imkanlarının kifayət qədər böyük olduğunu diqqətə çatdıran Ə.Həsənov iqtisadiyyatı iflic vəziyyətində olan, sosial fəlakət içində yaşayan, əhalisi baş götürüb qaçan Ermənistanın uzun müddət bu duruma tab gətirə bilməyəcəyini deyib.

Prezidentin köməkçisi müsahibədə ABŞ-ın Helsinki Komissiyasının sədri, konqresmen Kristofer Smitin Konqresə Azərbaycana qarşı bəzi sanksiyaların tətbiq olunması ilə bağlı təqdim etdiyi "qanun layihəsi"nə və Avropa Şurasının baş katibi Torbörn Yaqlandın Azərbaycanın Avropa İnsan Haqları Konvensiyasını necə yerinə yetirməsi üzrə rəsmi araşdırmaya başlanacağı haqda son bəyanatına, həmçinin Azərbaycanda KİV-lərin vəziyyətinə və media sahəsində mövcud problemlərə münasibət bildirib.

Ə.Həsənov 2015-ci ildə baş verən və faciə cəmiyyətdə geniş müzakirə olunan bir sıra xoşagəlməz hallar: Milli Təhlükəsizlik, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri ətrafında baş verən hadisələr, yüksək vəzifəli şəxslərin həbsi, Nardaran hadisələri, "Günəşli" yatağında baş verən faciə barədə sualı da cavablandırıb. O deyib: «Cənab Prezident Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bəzi dövlət strukturları tərəfindən sahibkarlara problemlər yaradıldığını bildirib və bu problemin aradan qaldırılması ilə bağlı son xəbərdarlığını edib. Bundan sonra qəbul edilmiş qərarlar və atılan addımlar göstərdi ki, Azərbaycan Prezidenti ölkədə iqtisadi inkişafın, liberal biznes mühitinin təhdid edilməsi, vətəndaşların, sahibkarların qanunla qorunan hüquq və mənafelərinin pozulması halları ilə barışmaq niyyətində deyil və belə pozuntulara yol verən şəxslərə qarşı ciddi tədbirlər görüləcək.

MTN-nin bir sıra əməkdaşları səlahiyyətlərini aşaraq müxtəlif texniki vasitələrlə ayrı-ayrı vəzifəli şəxsləri, iş adamlarını dinləyib və bundan öz məqsədləri üçün istifadə ediblər. MTN-in sabiq rəhbərliyi hüquqazidd əməllərinə Rabitə və Yüksək Texnologiyalar Nazirliyini də cəlb edib. Nəticədə vətəndaşlara və dövlətə külli miqdarda ziyan dəyib.

Ölkənin siyasi rəhbərliyi korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmaq və mənfi halları aradan qaldırmaq üçün böyük siyasi iradə nümayiş etdirir. Bundan sonra da Azərbaycan qanunlarına hörmətsizlik göstərən hər kəsin aqibəti MTN və RYTN-in sabiq rəhbərlərinin və onların qanunsuz əməllərinə şərik olanların aqibətindən fərqlənməyəcək.

Azərbaycan hüquqi, demokratik, dinamik inkişaf edən dövlətdir, ölkədə bütün məsələlər Konstitusiya və mövcud qanunvericilik əsasında tənzimlənir. Əlbəttə, Bakının ətrafında yerləşən Nardaran qəsəbəsinin uzun illərdir bəzi cinayətkar ünsürlərin, din pərdəsi altında gizlənmiş terrorçuların, xarici agentlərin məskəninə çevrilməsi, bu qəsəbədə ölkə qanunlarının işləməməsi, dövlət orqanlarının, bələdiyyənin fəaliyyət göstərməməsi artıq dözülməz hal almışdı. Qəsəbədə mövcud ab-hava Azərbaycan reallığını tam inkar edərək daha çox dini-teokratik cəmiyyəti xatırladırdı. Noyabrın 16-da silahlı dəstə tərəfindən iki polis əməkdaşının qətlə yetirilməsi qəsəbədəki özbaşınalığın son həddi oldu və bu ərazidə konstitusion quruluşun bərpa edilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini zəruri etdi. Dekabrın 1-dən etibarən hüquq mühafizə orqanlarının Nardaranda birgə xüsusi əməliyyat keçirməsi də bu məqsədi daşıyırdı. Həyata keçirilən əməliyyat nəticəsində qəsəbə terror qruplaşmasından təmizlənib, öz dinc həyatına, ümumazərbaycan mühitinə qaytarılıb. Bundan sonrakı dövrdə Nardaranda hakimiyyət orqanlarının funksiyasının məhdudlaşdırılması, təxribat törətmək, təhdid və təzyiq vasitəsilə insanları radikallığa və itaətsizliyə məcbur etmək cəhdlərinin qarşısı ən sərt şəkildə alınacaq.

Qəsəbədə bərpa və quruculuq işlərinin sürətləndirilməsi, mədəni-sosial həyatın canlandırılması, sakinlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində də addımlar atılır. Cənab Prezidentin göstərişinə əsasən Nardaranın abadlaşdırılması, qəsəbədəki infrastrukturun yenilənməsi, sakinlərin sosial problemlərinin həlli məqsədilə ilkin olaraq 12 milyon manat məbləğində vəsait ayrılıb.

Dekabrın əvvəlində "Günəşli" yatağındakı platformada baş vermiş faciə proqnozlaşdırılması mümkün olmayan təbii fəlakətin yaratdığı qəza idi. Baş verən hadisə zamanı istər SOCAR, istərsə də Fövqəladə Hallar Nazirliyi əlaqəli şəkildə fəaliyyət göstərərək şəraitin imkan verdiyi xilasetmə tədbirləri həyata keçiriblər. Təəssüf ki, təbii fəlakətin miqyası bütün gözlənti və ehtimallardan qat-qat böyük olduğundan görülən tədbirlər lazımi səmərə vermədi.

Təbii ki, bu qəzadan müəyyən nəticələr çıxarılacaq. Qəza haqda xəbərlər dəqiqləşəndən dərhal sonra Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə ölkə ərazisində birgünlük rəsmi matəm elan olunub, qəzanın səbəblərinin öyrənilməsi və nəticələrinin aradan qaldırılması üçün komissiya yaradılıb. Dənizdə qəhrəmancasına həlak olan neftçilərimizin ailələrinə kompensasiyalar verilib, müvafiq qanunvericiliyə uyğun şəkildə ailə üzvləri üçün yüksək həcmdə təqaüdlər müəyyən edilib, yaralı neftçilərin müalicəsinə hər cür şərait yaradılıb, həlak olanların dəfnini dövlət öz üzərinə götürüb. Qəzanın fəsadlarının aradan qaldırılması üçün digər zəruri tədbirlər davam etdirilir.

2016-cı ildə qarşıda duran vəzifələr və onların yerinə yetirilməsi ilə bağlı sualı cavablandıran Ə.Həsənov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın öz müstəqil siyasətini bundan sonra da davam etdirəcəyini milli inkişaf strategiyasının reallaşdırılması, iqtisadiyyatın daha da inkişaf etdirilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq nüfuzunun artırılması, milli təhlükəsizliyin və sabitliyin təmin olunması istiqamətində tədbirlərin ardıcıl şəkildə həyata keçiriləcəyini bildirib. «Ümummilli problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həlli qarşıda duran ən başlıca vəzifədir. Xalqla iqtidar arasında birlik, ən əsası vətəndaşların Prezident İlham Əliyevə böyük etimadı qarşımızda duran bütün problemlərin öhdəsindən gəlməyə kömək edəcək. Azərbaycan müstəqillik, inkişaf və rifah yolu ilə gedir və bu yolda yeni zəfərlər qazanmaqda davam edəcək», - deyə Ə.Həsənov vurğulayıb.

XƏBƏR XƏTTİ 2015

Azərbaycanda xarici valyuta tənzimlənməsi qaydalarının pozulmasına görə cəzalar sərtləşdirilib

♦ Azərbaycanda xarici valyuta tənzimlənmələrinin pozulmasına, xarici valyuta ilə əməliyyatlarda müəyyən olunmuş qaydaların pozulmasına görə sərt cəzalar tətbiq olunub.

APA-nın məlumatına görə, bu, yeni qəbul olunmuş İnzibati Xətalar Məcəlləsinin 429-cu maddəsində təsbit olunub.

"Valyuta tənzimi qaydalarının pozulması" adlanan maddəyə görə, müvəkkil banklar tərəfindən müştərilərin xarici valyuta əməliyyatlarının qanunvericiliklə müəyyən olunmuş qaydalarının pozularaq aparılmasına görə vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin 10 faizindən 20 faizinədək məbləğdə, hüquqi şəxslər isə 20 faizdən 40 faizinədək cərimə olunacaqlar.

Köhnə məcəllədə bu cərimələr müvafiq olaraq 5 faizdən 10 faizə qədər və 5 faizdən 30 faizə qədər nəzərdə tutulurdu.

Azərbaycan Prezidenti tərəfindən təqdim olunmuş yeni İnzibati Xətalar Məcəlləsi dekabrın 29-da Milli Məclis tərəfindən qəbul olunub və 2016-cı il mayın 1-dən qüvvəyə minəcək.

Tarif Şurası: Benzinin qiymətinin dəyişdirilməsi məsələsi gündəmdə deyil

♦ Hazırda Azərbaycanda yanacaq və bezinin qiymətinin dəyişdirilməsi məsələsi Tarif Şurasında müzakirə olunmur.

Bunu "APA-Economics"ə İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev bildirib.

Onun sözlərinə görə, bununla bağlı şuraya müraciət olmayıb, məsələ gündəmdə deyil.

"ASAN xidmət" bayram günlərində işləməyəcək

♦ Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il ilə əlaqədar bütün "ASAN xidmət" mərkəzlərində 31 dekabr – 4 yanvar tarixlərində qeyri-iş günü olacaq. "ASAN xidmət"in informasiya təminatı şöbəsindən APA-ya verilən xəbərə görə, 5 yanvar tarixindən etibarən isə vətəndaşlar "ASAN xidmət" mərkəzlərinə müraciət etməklə müvafiq xidmətlərdən yararlana biləcəklər.

Qeyd edək ki, "ASAN xidmət" mərkəzləri həftənin bazar ertəsi - cümə günləri saat 10:00-dan 20:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 17:00-dək (nahar fasiləsi olmadan) fəaliyyət göstərir.

Baş Dövlət Yol Polisi İdarəsi bayramla bağlı sürücülərə müraciət edib

♦ Baş Dövlət Yol Polisi İdarəsi (BŞDYPİ) sürücülərə müraciət edib.

İdarədən APA-ya verilən məlumata görə, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə respublikanın avtomobil yollarında nəqliyyatın hərəkət intensivliyi artacaq. Bununla əlaqədar BDYPİ-i hərəkət iştirakçılarını yol hərəkəti qaydalarına ciddi riayət etməyə, xüsusilə sürücüləri bayram günlərində sərxoş halda sükan arxasında əyləşməməyə, rayonlara səfərə çıxanlara isə müəyyən edilmiş sürət həddinə diqqət etməyə çağırıb.

Enerjisistemin prioritet vəzifələri uğurla həyata keçirilmişdir

Ölkəmizin həyatında çoxsaylı uğur və nailiyyətləri ilə yadda qalacaq 2015-ci il başa çatmaqdadır. “Azərenerji” ASC-nin prezidenti Etibar Pirverdiyev bu il enerjisistemdə görülmüş işlər haqqında məlumat verərək demişdir:

- Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını yeni dövrün tələb və çağırışlarına uyğun olaraq zənginləşdirən cənab Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasət nəticəsində müstəqil Azərbaycan dövləti davamlı sosial-iqtisadi tərəqqini təmin etməklə yanaşı, özünün bölgədə və dünyada mövqelərini bu il daha da möhkəmləndirmişdir. Dünyada iqtisadi böhranın dərinləşdiyi bir şəraitdə Azrbaycanda iqtisadi dayanıqlılığın qorunub saxlanması, xalqın rihafına, vətəndaşların mənafeyinə xidmət edən layihələrin ardıcıllıqla icra olunması dövlətimizin gücünün və qüdrətinin göstəricisidir. Bu günlərdə ölkənin idman ictimaiyyəti ilə görüşündə cənab Prezident İlham Əliyev demişdir: “Biz güclü iqtisadiyyat qururuq. Bu gün iqtisadi sahədə apardığımız siyasət, doğrudan da, dünya miqyasında təqdirlə qarşılanır. Bütün aparıcı beynəlxalq maliyyə qurumları - Dünya Bankı, Avropa Bankı, Beynəlxalq Valyuta Fondu bunu qeyd edirlər və iqtisadi sahədə apardığımız siyasəti dəstəkləyirlər”. Dünya iqtisadiyyatının bir parçası olduğu üçün Azərbaycan iqtisadiyyatı böhranların təsirindən kənarda qala bilməsə də, dövlətimizin başçısının düşünülmüş və cəsarətli addımları ölkəmiz üçün mümkün riskləri azaldır, xalqımızın təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamasını təmin edir.

Belə bir şəraitdə inkişafın dayanıqlı xarakter alması son 12 ildə sosial-iqtisadi islahatların düzgün istiqamətdə həyata keçirildiyini bir daha təsdiqləyir. Bu islahatların diqqətəlayiq nəticələri elektrik energetikası sahəsində də özünü aydın bir şəkildə göstərməkdədir. Elektrik enerjisi sistemindəki keyfiyyət və kəmiyyət dəyişiklikləri, generasiya potensialının yenilənməsi və artırılması nəticəsində ölkəmiz elektrik enerjisinin idxalından azad olmuş və ixrac potensialını artırmışdır. Generasiya güclərinin müasirləşdirilməsi enerjisistemin texniki-iqtisadi göstəricilərinin daha da yaxşılaşdırılmasına, hər kilovat-saat elektrik enerjisinin istehsalına yanacaq sərfiyyatının azaldılmasına imkan vermişdir.

Azərbaycanın elektrik energetikası sisteminin yeni inkişaf mərhələsi kimi səciyyələndirilən bu dövr regionların sosial-iqtisadi inkişafına və yanacaq-enerji kompleksinin inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin, əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması sahəsində dövlətimizin başçısının göstəriş və tapşırıqlarının uğurla yerinə yetirilməsi ilə əlamətdardır. Bütün bunların nəticəsində 12 il ərzində respublikanın müxtəlif regionlarında ümumi gücü 2300 MVt-dən artıq olan çoxlu sayda yeni elektrik stansiyası istismara verilmişdir. Minlərlə kilometr elektrik verilişi xətləri, çoxlu sayda yarımstansiya inşa edilmiş və yenidən qurulmuşdur.

Prezident İlham Əliyev “Göyçay-1” SES-in açılışında. 6 oktyabr 2015-ci il.

2015-ci ildə də enerjisistemin dayanıqlılığının artırılması, əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatının daha da yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir.

Bu ilin iyun ayında Bakıda Birinci Avropa Oyunlarının keçirilməsi respublikamızın həyatında ən mühüm hadisə olmuşdur. Azərbaycan energetikləri də ölkəmizə və xalqımıza şərəf gətirən bu möhtəşəm idman bayramına öz töhfələrini vermişlər. Bakı Olimpiya stadionunun tikilməsi ilə əlqədar olaraq, 220 kV-lik 1-ci və 2-ci “Nizami”, 110 kV-lik 4-cü “Ramanı” ikidövrəli hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəzlənmişdir. 110 kV-lik 2-ci və 4-cü “Binəqədi” hava xətlərinin Stend Atıcılığı Kompleksinin ərazisindən keçən hissəsi də kabel xəttinə keçirilmişdir.

Avropa Oyunlarının keçirildiyi dövrdə “Azərenerji” ASC elektrik enerjisi təchizatını təmin etmək üçün tədbirlər planı hazırlayıb, həyata keçirmişdir. Həmin günlərdə artan tələbatı nəzərə alaraq, bütün ehtiyat qüvvələr əvvəlcədən səfərbər edilmiş, ehtiyatda olan elektrik avadanlıqları tam hazırlıq vəziyyətinə gətirilmişdir. Abşeron və Mingəçevir yüksək gərginlikli elektrik şəbəkələri xüsusi iş rejimində işləmişlər. Nəticədə yarışların keçirildiyi günlərdə tələbatın artmasına baxmayaraq (dispetçer qrafikinə əsasən gündəlik istehlaka uyğun istehsal dinamikasının müqayisəsi, hava şəraiti və s. nəzərə alınmaqla), respublikada elektrik enerjisi ilə təminatda heç bir problem olmamışdır.

Enerjisistemin 2015-2016-cı illərin payız-qış mövsümünə hazırlığı üzrə tədbirlər planına uyğun olaraq həm istehsal müəssisələrində, həm də ötürücü şəbəkələrdə böyük həcmdə təmir işləri yerinə yetirilmişdir. Məhz bunun nəticəsidir ki, bu yaxınlarda ölkə ərazisində güclü küləklə müşayiət edilən leysan yağışları zamanı enerji təchizatında heç bir ciddi problem və qəza halları qeydə alınmamışdır.

İl ərzində yeni generasiya güclərinin yaradılması və mövcud güclərdən səmərəli istifadə edilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. Belə ki, “Şimal” Elektrik Stansiyasında 409 MVt gücündə ikinci buxarqaz qurğusunun tikintisi davam etdirilir. Bu layihənin reallaşdırılması ilə Abşeron yarımadasının, Bakı şəhərinin, onun ətrafındakı kənd və qəsəbələrin enerji təminatı daha da yaxşılaşdırılacaq, ümumən, enerjisistemin dayanıqlılığı gücləndiriləcəkdir. Layihə çərçivəsində “Şimal-1” və “Şimal-2” elektrik stansiyaları üçün yeni soyutma sisteminin, 220 və 110 kV-lik yarımstansiyaların, dəniz suyunun duzsuzlaşdırılması sisteminin qurulması nəzərdə tutulur. Stansiyanın yaxın vaxtlarda istismara verilməsi planlaşdırılır.

Mühüm əhəmiyyəti ilə seçilən layihələrdən biri – Lerik və Yardımlı rayonlarının enerji təchizatının dayanıqlılığını daha da artırmağa imkan verən 16,5 MVt gücündə elektrik stansiyasının tikintisidir. Bu stansiyanın da tezliklə istismara verilməsi nəzərdə tutulur.

Respublikanın ayrı-ayrı iqtisadi rayonlarında kiçik su elektrik stansiyalarının tikintisi də prioritet layihələr sırasındadır. Prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli Sərəncamı ilə kiçik su elektrik stansiyalarının respublikada geniş tətbiq edilməsi məqsədilə xüsusi proqramlar hazırlanmışdır. Mütəxəssislərin araşdırmalarına görə, respublikanın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində bir neçə kiçik su elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Tikintisi həm iqtisadi cəhətdən, həm də regionların inkişafı baxımından məqsədəuyğun olan bu stansiyalardan istifadə, bir tərəfdən, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə imkan verir, digər tərəfdən, ekoloji cəhətdən sərfəlidir. Həmin generasiya obyektlərində mürəkkəb avadanlığın olmaması texniki istismar məsələlərini də əhəmiyyətli dərəcədə sadələşdirir.

Bu il oktyabrın 6-da cənab Prezident İlham Əliyevin iştirakı ilə “Göyçay-1” SES-in açılış mərasimi keçirilmişdir. Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilmiş 3,1 MVt-lik stansiya ildə 20 milyon kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verəcəkdir. Bu isə Göyçay rayonunun tələbatının 25 faizini təşkil edir.

Respublikamızın şimal-qərb bölgəsində inşa edilən 1,5 MVt-lik “Balakən-1” kiçik su elektrik stansiyasında hazırda sınaq-sazlama işləri başa çatdırılmışdır.

1,6 MVt-lik “İsmayıllı-2”, 0,3 MVt-lik “Astara-1”, ümumi gücü 3,6 MVt olan “Oğuz-1”, “Oğuz-2” və “Oğuz-3” su elektrik stansiyalarının tikintisi başa çatmaq üzrədir.

Mövcud su elektrik stansiyalarının potensialından daha səmərəli istifadə olunması istiqamətində də zəruri tədbirlər reallaşdırılır. Bu işlər əsasən respublikamızın qərb bölgəsində yerləşən 400 MVt gücündə “Mingəçevir” və 16,5 MVt gücündə “Varvara” su elektrik stansiyalarında aparılır.

Dövlətimizin başçısının tapşırığına əsasən, enerjinin ötürülməsi sistemində yeniləşmə proseslərinin aparılması istiqamətində məqsədyönlü işlər davam etdirilir. Əvvəlki illərdə “1-ci, 2-ci Mingəçevir EVX-nin yenidənqurulması” layihəsi çərçivəsində gücü 360 MVA olan 220 kV-lik “Ağdaş” YS-nin, 220 kV-lik ikidövrəli “Mingəçevir ES - Abşeron YS” HX-nin tikintisi və 500 kV-lik “Abşeron” yarımstansiyasında 400 MVA gücündə 3-cü avtotransformatorun quraşdırılması və sxemə qoşulması üzrə işlər başa çatdırılmışdır. Eyni zamanda gərginliyi 330 kV-lik olan “Goranboy” paylayıcı məntəqəsi istifadəyə verilmişdir. Sistem əhəmiyyətli yeni qapalı dövrə yaranmışdır. 220 kV-lik “Şimal ES - Hövsan YS” hava xəttinin tikintisi, gücü 360 MVA olan 220 kV-lik “Zabrat” yarımstansiyasının inşası, 220 kV-lik ikidövrəli “Şimal ES-Zabrat YS-Sumqayıt ES” hava xəttinin tikintisi layihəsi üzrə işlər tam başa çatdırılmış və bunların bir hissəsi şəbəkəyə qoşulmuşdur.

2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı ümumi uzunluğu 80 kilometrədək olan 110 kV-lik hava xəttinin yenidənqurulması üzrə işlər nəzərdə tutulur.

Azərbaycanın enerji sisteminin prioritet istiqamətlərindən biri qonşu ölkələrlə elektrik energetikası sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsidir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın bu il oktyabrın 9-da Moskvada keçirilən on beşinci iclasında iki ölkənin elektroenergetika sahəsində ikitərəfli əməkdaşlığı barədə qərar qəbul edilmişdir.

Həmçinin İran enerji sistemi elektrik enerjisi mübadiləsi üzrə işlərin də yeni müstəvidə davam etdirilməsi qərara alınmışdır.

İl ərzində enerji mübadiləsində Azərbaycan enerji sistemi müsbət saldoya malik olmuşdur.

2015-ci ildə “Azərenerji” ASC-nin nümayəndələri Azərbaycan-Rusiya, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Belarus, Azərbaycan-İran hökumətlərarası komissiyalarının işində, MDB Elektroenergetika Şurasının 48-ci iclasında iştirak etmişlər.

Azərbaycanda elektroenergetika elminin inkişafı, layihə-axtarış işlərinin təkmilləşdirilməsi istiqamətində də davamlı iş aparılır, energetik alimlərimiz beynəlxalq elmi tədbirlərdə ölkəmizi layiqincə təmsil etmişlər.

Ən müasir texnologiyalara əsaslanan yeni energetika obyektlərinin inşası, yeni generasiya güclərinin işə salınması nəticəsində inamla deyə bilərik ki, elektrik energetikası sahəsində həyata keçirilən mükəmməl dövlət siyasəti enerjisistemin bundan sonra da sosial-iqtisadi inkişafdakı əvəzedilməz rolunun layiqincə yerinə yetirməsini təmin edəcəkdir.

Bakı Olimpiya stadionu. 220 kV-lik 1-ci və 2-ci “Nizami”, 110 kV-lik 4-cü “Ramanı” ikidövrəli hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəzlənib, xüsusi tikililərdə yerləşdirilib.

BAYRAM TƏBRİKİ 2015-2016

Hörmətli energetiklər!

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və 1 Yanvar - Yeni il bayramı münasibətilə sizi səmimi qəlbdən təbrik edir, hər birinizə ən xoş və səmimi arzularımı bildirirəm.

Ümummilli Liderimiz Heydər Əliyev ölkə həyatının bütün sahələrinin inkişafı, eyni zamanda, təşəbbüskarı olduğu dünya azərbaycanlılarının bir amal və bir məslək uğrunda fəal mübarizə aparması məqsədilə müəyyənləşdirdiyi strategiya respublikamızın sosial-iqtisadi tərəqqisi və beynəlxalq iqtisadi sistemə inteqrasiyası üçün əlverişli zəmin formalaşdıraraq iqtisadiyyatın inkişafını təmin etmişdir.

Əsası Ulu Öndər tərəfindən qoyulmuş və Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yeni dövrün tələblərinə uyğun həyata keçirdiyi islahatlar nəticəsində regional və qlobal enerji təhlükəsizliyi sahəsində mövqelərimiz daha da möhkəmlənmiş, regionların sosial-iqtisadi inkişafı sürətləndirilmişdir. Dövlət Başçımızın rəhbərliyi altında Azərbaycan iqtisadiyyatının son illərdəki dinamik inkişafı şəhər və kəndlərimizin simasını dəyişmiş, istehsal və sosial infrastruktur obyektləri yaradılmışdır. Ümumiyyətlə, ölkəmizdə həyata keçirilən kompleks islahatlar bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaratmış, o cümlədən, makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunmuş, yoxsulluğun azaldılmasında və əhalinin sosial rifahının yüksəldilməsində ciddi nailiyyətlər qazanılmış, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi ölkəmizin gələcək inkişafı üçün geniş imkanlar açmışdır. O cümlədən, elektrik enerjisi sistemində də qarşıya qoyulmuş prioritet vəzifələr uğurla həyata keçirilmişdir. Əminliklə demək olar ki, aparılan uğurlu siyasət qarşıdakı illərdə də respublika elektrik enerjisi sisteminin davamlı inkişafını təmin etməklə iqtisadi potensialımızı daha da gücləndirməyə imkan yaradacaqdır. Mən sizin hamınıza bu işlərdə uğurlar arzulayıram.

Bir daha sizləri bu əziz bayramlar münasibətilə təbrik edir, möhkəm cansağlığı, xoş əhval-ruhiyyə arzulayıram.

Yeni iliniz mübarək!

Etibar Pirverdiyev

AzərEnerji

DÜNYADAN SORAQLAR 2015-2016

BANQLADEŞ

AES-in birinci növbəsinin tikinti-quraşdırma bazası hazırlanacaq

♦ **«İnter-RAO-İnjinirinq» MMC və «Atomstroyeksport» SC («Rosatom» Dövlət Korporasiyasına daxildir) Banqladeş Xalq Respublikasında «Ruppur» AES-in tikintisində hazırlıq mərhələsinin birinci dərəcəli işlərin həyata keçirilməsi barədə müqavilə imzalayıblar.**

Həmin müqavilə çərçivəsində şirkət «Ruppur» AES-in tikinti-quraşdırma bazasının inşası və istismara verilməsi sahəsində tam iş kompleksini yerinə yetirməlidir. Misal üçün, «İnter RAO-İnjinirinq» yük maşınları və xüsusi texnika üçün dayanacaqlar, məişət və anbar binaları, meydançadaxili şəbəkələr, müvəqqəti avtomobil yolları və s. tikəcək.

Müqavilənin dəyəri 2 milyard rubldan çoxdur. İcra müddət isə 8 aydır.

İndi «İnter RAO-İnjinirinq» Banqladeşdə işləyir, orada 210 MVt gücündə «Qorazal» İES-in 5-ci blokunun «açartəhvili» şərti ilə əsaslı təmir işlərini reallaşdırır.

«Cənubi və Cənub-Şərqi Asiyada biznesin ardıcıl inkişaf etdirilməsi həmin regionda «Rosatom» DK-ya partnyor olmaqda «İnter RAO-İnjinirinq»ə imkan verib. Ümid edirik ki, müqaviləni müvəffəqiyyətlə yerinə yetirməyimiz «Ruppur» AES-in əsas tikintisi çərçivəsində başqa işlərə iddiaçı olmaqda bizə imkan verəcək», - deyə «İnter RAO-İnjinirinq» MMC-nin baş direktoru Yuri Şarov bildirib.

UKRAYNA-SƏUDİYYƏ ƏRƏBİSTANI

İlk dəfə transformatorlar göndərilib

♦ **«Zaporojtransformator» (ZTR) Səudiyyə Ərəbistanı üçün hazırlanmış 100 MVA 132 kV ilk transformatorun sınaqlarını keçirib. Sonuncu sifarişçi kimi «National Grid SA» («Saudi Electricity Company») çıxış edir.**

Transformatorun sınaqlarının keçirilməsində sonuncu sifarişçinin nümayəndələri, həmçinin «Bureau Veritas» (Ukrayna) müstəqil nəzarət agentliyinin nümayəndəsi iştirak ediblər.

Növbəti transformatorun sınaqları noyabrın ikinci yarısında aparılıb. – həmin sifarişçi üçün cəmi dörd vahid transformator avadanlığı hazırlanıb. Onların sınaqdan keçirilməsi və yə yola salınması cari ilin sonu üçün nəzərdə tutulub.

Bu, müəssisənin Səudiyyə Ərəbistanına tədarükü ilə əlaqədar ilk müqavilədir. «Zaporojyetransformator» yenidən ixtisas dəyişikliyi prosedurrunu həyata keçirmək üçün uzun müddət tələb olunurdu. Bu prosedur isə 2014-cü ilin əvvəllərində başa çatdırıldı. Hazırda ZTR «Saudi Electricity Company» üçün postsovet məkanında yeni ixtisas qazanan yeganə müəssisədir.

İndi ZTR transformator avadanlıqlarına keçirilən tenderlərdə fəal iştirak edir. Nəticədə müəssisə birinci dörd iri sifariş alıb.

Həmin layihənin xüsusiyyəti ondan ibarətdir ki, tədarük edilən hər bir transformator analoji gücə və gərginliyə malik olan bir neçə digər transformator üçün eyni zamanda ehtiyat kimi xidmət etməlidir, onlar müxtəlif istehsalçılar tərəfindən müxtəlif vaxtda hazırlanmış olmalı, müvafiq surətdə qabarit ölçüləri ilə fərqlənməlidir. Ehtiyat transformatorlardan biri müxtəlif tipdən olan iki komplektlə verilməlidir ki, lazım gəldikdə bir neçə növ köhnə transformatorları əvəz edə bilsin. Sözügedən tələblər avadanlıq tədarükçüsünün üzərinə düşən yüksək məsuliyyəti nəzərdə tutur.

Avadanlıqlar cari ilin sonunadək daşınmalıdır.

HİNDİSTAN

Blok ölkənin enerji sisteminə yenidən qoşulacaq

♦ **«Kudankulam» AES-in birinci enerji blokundakı reaktora nüvə yanacağı yüklənməsi başa çatdırılıb. Bundan əvvəl orada planlı-ehtiyat təmir işləri görülmüşdü.**

Planlı-ehtiyat təmir (PET) çərçivəsində aparılan işlər əvvəlcədən planlaşdırılmış qaydada həyata keçirilib. Bu işlərin nəticələrinə görə hazırlanan müfəssəl hesabat Hindistan nəzarət orqanı (AERB) tərəfindən nəzərdən keçirilib və razılaşdırılıb. Planlı-ehtiyat təmir işləri və nüvə reakoruna yanacaq doldurulması ASE şirkətlər qrupu nümayəndələrinin yardımı ilə yerinə yetirilib.

Hindistanda layihələr üzrə direktor Vladimir Saytiyevin sözlərinə görə, yanacaq doldurulması və bütün zəruri tədbirlərin həyata keçirilməsindən sonra «Kudankulam» AES-in 1-ci enerji bloku yenidən Hindistanın enerji sisteminə qoşulacaq.

«Kudankulam» AES tikintisinin əsasında «Atomenerqoproyekt» SC-nin VVER-1000 MVt enerji bloku olan layihə durur. Həmin layihə Rusiyanın və Beynəlxalq Atom Enerjisi Agentliyinin müasir normativ-texniki sənədlərinin tələblərinə tam cavab verir, Avropa istismaredici təşkilatları klubunun (EUR) tələblərinə uyğun sertifikasiya alıb. «Kudankulam» AES-in birinci enerji blokunun ilkin qəbulu aktı 2014-cü il dekabrın 27-də Hindistanın atom enerjisi Korporasiyasının (İKAEL) və ASE SC-nin nümayəndələri tərəfindən imzalanıb. Birinci enerji bloku illik zəmanətli istismar müddəti üçün təhvil verilib.

«Kudankulam» AES Hindistanın Tamil Nadu ştatında 1988-ci il 20 noyabr tarixli Rusiya-Hindistan sazişi çərçivəsində inşa edilir. Baş layihəçi «Atomenerqoproyekt» SC, texniki köməkçi «Atomstroyeksport» SC (ASE), sifarişçi Hindistanın atom enerjisi korporasiyasıdır (İKAEL).

Materialı hazırladılar: V.Məmmədov, Ə.Baxşəliyev

31 DEKABR – DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR 2015-2016

Milli birlik və həmrəylik günümüz

♦ Azərbaycan xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri də 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu bayram gününün bütün dünya azərbaycanlıları tərəfindən qeyd edilməsi artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilib.

...Milli birlik və həmrəylik ideyası sivil insan cəmiyyəti formalaşandan mövcud olmuş, mürəkkəb təkamül mərhələlərindən keçərək təkmilləşmiş, hər bir xalqın vahid məqsədlər ətrafında birləşməsində mühüm rol oynamışdır. Dövlət müstəqilliyinin qorunub saxlanılmasının ən vacib şərtlərindən biri məhz xalqın milli birliyə və həmrəyliyə malik olmasıdır. Ümumxalq mənafelərimizin həyata keçirilməsi, soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi prosesinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Ulu Öndər Heydər Əliyevin Naxçıvandan başlayan xilaskarlıq missiyasının əsas qayəsini xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. 1991-ci il dekabrın 16-da Ümummilli Liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qərarı ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edildi.

Ulu Öndər 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra milli birliyə nail olunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirildi, azərbaycançılıq anlayışı milli ideologiyaya çevrildi, xaricdə yaşayan həmvətənlərimizin Azərbaycanla əlaqələri genişləndirildi, milli diaspor təşkilatlarının yaradılmasına başlanıldı.

Dahi rəhbər Heydər Əliyev böyük inamla dünya azərbaycanlılarının bir amal və bir məsələk uğrunda fəal mübarizə aparması işinə başladı və bu çətin problemi öz dühasının gücü ilə uğurla həll etdi. Ulu Öndərin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-u və 10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyin əldə edilməsində ən vacib şərt olan diaspor quruculuğu sahəsində həlledici mərhələnin başlanğıcı kimi tariximizə yazıldı. Bu qurultayın keçirilməsi milli birliyin və həmrəyliyin, Azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda mühüm addım idi.

Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, həmin il dekabrın 27-də “Xaricdə yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirdi. Dövlət komitəsinin yaradılması və qanunun qəbul edilməsi, bütövlükdə, dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da sürətləndirdi, xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən idarə olunmasına və soydaşlarımızın Vətənlə əlaqələrinin möhkəmlənməsinə səbəb oldu.

Ulu Öndər Heydər Əliyevin milli birlik, həmrəylik və azərbaycançılıq ideyaları bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər, soydaşlarımızın vahid ideologiya ətrafında birləşməsi yolunda gördüyü işlər, qəbul etdiyi tarixi qərarlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarda milli ruhun yüksəldilməsinə, onların doğma Vətənə bağlılıqlarının artırılmasına səbəb olmuşdur. Prezident İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən, həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir.

Dövlətimizin başçısının 2008-ci il noyabrın 19-da imzaladığı Fərmanla isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmış, dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir. Bu dövrdən etibarən dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha da mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoymuş, onların doğma Vətənə olan bağlılıqlarını artırmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin ardıcıl xarakter almasının nəticəsidir ki, bu gün ölkəmizi xaricdə 400-dən çox diaspor təşkilatı təmsil edir.

2011-ci il iyulun 5-də Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının III Qurultayında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları iştirak etmişlər. Qurultay xaricdə yaşayan soydaşlarımız tərəfindən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəni irsimizin təbliği, təcavüzkar erməni təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynamış, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların növbəti birlik və həmrəylik bayramına çevrilmişdir.

Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar yaşadıqları xarici ölkələrdə fəal toplum kimi çıxış edir, cəmiyyətin iqtisadi, ictimai-siyasi və mədəni həyatına daha çox inteqrasiya olunur, həmin ölkələrlə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında yaxından iştirak edirlər...

...Xalqımız hər dəfə Dünya Azərbaycanlılarının Həmrəylik Gününü ən xoş amal və duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət taparaq ürəklərdə Vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır.

Əfv olundular

♦ Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı, “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” sərəncamın icrasına başlanılıb.

Dövlət başçısı tərəfindən məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, İnsan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq, məhkumların şəxsiyyəti, səhhəti, ailə vəziyyəti, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınmaqla, humanizm prinsiplərinə əsaslanaraq imzalanan sərəncam 210 nəfərə şamil edilib.

Onlardan azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 198 nəfər, islah işləri cəzasına məhkum edilmiş 3 nəfər cəzalarının çəkilməmiş hissəsindən və cərimə cəzasına məhkum edilmiş 9 nəfər cəzadan azad ediliblər.

Azad edilənlər arasında 3 Böyük Britaniya, 3 Nigeriya, 2 Gürcüstan, 2 Çin, hərəsindən 1 nəfər olmaqla Qazaxıstan, İran, Əfqanıstan, Suriya, Pakistan, Türkiyə, Kamerun və Kamboca vətəndaşları da var.

Hava haqqında

Dekabrın 31-də Bakı və Abşeron yarımadasında fasilələrlə yağıntılı olacağı gözlənilir, bəzi yerlərdə sulu qara, qara keçəcəyi ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, havanın temperaturu Abşeron yarımadasında gecə və gündüz 2-5 isti, axşama doğru 0 dərəcəyə yaxın, Bakıda gecə və gündüz 3-5 dərəcə isti, axşama doğru 0 dərəcəyə yaxın olacağı gözlənilir.

Dekabrın 31-də Azərbaycanın rayonlarında fasilələrlə yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu Aran rayonlarında gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 2-7 dərəcəyə şaxta, yüksək dağlıq ərazilərdə 14 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacağı gözlənilir.

MƏDƏNİYYƏT 2015

“Göygöl Milli Parkı” sənədli filminin təqdimatı

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təqdimatda iştirak edib

♦ Dekabrın 29-da Nizami Kino Mərkəzində IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin “Azərbaycanın 9 möcüzəsi” adlı layihəsi çərçivəsində çəkilmiş “Göygöl Milli Parkı” sənədli filminin təqdimatı keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva təqdimatda iştirak edib.

AZƏRTAC xəbər verir ki, filmin təqdimatından əvvəl Leyla Əliyeva “Göygöl Milli Parkı” filminin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi ilə tanış olub.

Mərasimdə çıxış edən İqor Bışnyov “Göygöl Milli Parkı” layihəsinin təşəbbüskarı Leyla Əliyevaya təşəkkürünü bildirərək filmin çəkiliş prosesindən təəssüratlarını qonaqlarla bölüşüb.

Rejissor deyib: “Layihə çərçivəsində ilk film ötən il təqdim edilən “Şirvan Milli Parkı”, ikinci film cari ilin aprel ayında təqdim olunan “Quşlar cənnəti – Ağgöl Milli Parkı” sənədli filmidir”.

Göygöl Milli Parkının 1925-ci ildə yaradıldığını diqqətə çatdıran İ.Bışnyov bildirib ki, bu film qoruğun yaranmasının 90 illiyi ilə bağlıdır.

İqor Bışnyov layihə çərçivəsində çəkilən ilk iki filmin sırf təbiətə həsr edildiyini vurğulayaraq “Göygöl Milli Parkı” sənədli filminin yalnız təbiət haqqında deyil, Azərbaycanın çoxəsrlik mədəniyyəti, həm də arxeoloji faciə haqqında olduğunu söyləyib.

Rejissor Azərbaycanda şəxsən Prezident İlham Əliyevin milli parkların açılışlarında iştirak etməsinin çox xoş hadisə olduğunu qeyd edib.

İqor Bışnyov layihənin rəhbəri Leyla Əliyevaya minnətdarlığını bildirərək deyib ki, IDEA ilə əməkdaşlıq etmək olduqca maraqlıdır. IDEA İctimai Birliyinin uşaqları ekoloji cəhətdən tərbiyələndirməsi çox əhəmiyyətli məsələdir.

O, hamını Yeni il və Göygöl Milli Parkının 90 illiyi münasibətilə təbrik edərək deyib ki, qoy bu film bayramlara bir hədiyyə olsun.

IDEA-nın “Azərbaycanın 9 möcüzəsi” layihəsi çərçivəsində ölkəmizin 9 milli parkı barədə sənədli filmin hazırlanması nəzərdə tutulur.

ASTROLOJİ PROQNOZ 2016

İLİN ULDUZ FALI

QOÇ

Harmoniya və sabitlik gözlənilir. Yalnız ifratlardan uzaq olmaq məsləhətdir. İş fəaliyyətində yaxşılığa doğru dəyişiklər olacaq. Şəxsi həyatda sakitlik, ilin sonuna yaxın böyük mənfəət gözlənilir. 2016-ci ildə sağlamlıq sarıdan narahatlıq olmayacaq.

BUĞA

İşdə yüksəlişlər vəd edilir. Mükafatlanma gözənilir. Sağlamlığa və qidalanmaya diqqət edilməlidir. Şəxsi həyatlarında da münasibətlərin düzələcəyi gözlənilir. Bu ildə ailə, qohum dəstəyi də sizinlə olacaq. Həmçinin düzgün qidalanmaq və vaxtında həkimə getmək lazımdır.

ƏKİZLƏR

Bütün tutduğu işlər uğurla nəticələnəcək. Keçən ilə nisbətən 2016-cı ildə ailəyə diqqəti artırmaq lazımdır. Pul problemi bu ildə qaydasında olacaq. Gəlirlərin və karyeranın yüksəkliyi gözlənilir. Əkizləri şəxsi həyatında diqqət yaranacaq. Hədiyyələr, görüşlər artacaq. Lakin tənha əkizlər tale yoldaşlarını tapmaqda çətinlik çəkəcəklər. 2016-cı ildə əkizlərin sağlamlığı özlərindən asılı olacaq.

XƏRÇƏNG

Bu il çox işləməli olacaqlar. İlin axırında çəkdikləri əziyyətin bəhrəsini görəcəklər. Şəxsi həyatındakı insanla stabillik, sakitlik gözlənilir. Subay xərçənglər öz yarılarını bu ildə tapacaqlar. Kredit götürməkdən qorxmayın, çünki ilin sonuna kimi hamısını qaytaracaqsınız.

ŞİR

Əziyyət çəkməyəcəklər. Peşə üçün fəallığa manea yaranmayacaq. İşi ona zövq verəcək və nəticəsi böyük olacaq. Çılğınlıqları bu il kənara qoymaq lazımdır. Çünki bilmədən səhvlərə yol verə bilərlər. Şəxsi həyatınızda əsaslı dəyişikliklər olacaq. Maliyyə məsələləri qaydasına düşəcək.

QIZ

Bu il çox çalışmalı olacaqlar. Baxmayaraq ki, maneələri aradan qaldırmaq üçün il öz köməyini göstərəcək. İşdə yeni əlaqələr və tanışlıqlar yaranacaq. Romantika və şəxsi həyat dərinləşəcək. 2016-cı ilin ikinci yarısı daha çox şans vəd edir. Həssas insanlar əsəbdən uzaqlaşmaq üçün istirahətdən yayınmamalıdırlar.

TƏRƏZİ

2016-cı il tərəzilər üçün uğurlu il olacaq. Karyeralarında 1-2 pillə yüksəliş gözlənilir. Şəxsi həyatında Meymun ili yeni heç nə vəd etmir. Maddi vəziyyət yaxşılaşacaq, sevgi ikinci plana keçəcək. Subay tərəzilər taleləri üçün ilin sonunda axtarışa çıxsalar, yaxşıdır. Ailəlilərin isə bəxti gətirib, ilin sonuna kimi sakitlik olacaq. Özünü yaxşı hiss etdiyinə görə, il boyu gümrah olacaqlar. Yüngül soyuqdəymə əhvallarını pozmayacaq.

ƏQRƏB

Gələn il əqrəblərin həyatında cürbəcür dəyişikliklər olacaq. Əvvəldən nəzərdə tutulan planları israrla gerçəkləşdirməyə çalışmalıdırlar. Aktiv əqrəblər çox şeyə nail olacaqlar. Evlilər arasındakı soyuq münasibətlər istiləşəcək və sürprizlər yaranacaq. Sağlamlıqları qaydasında olacaq.

OXATAN

Karyerada yüksəliş gözlənilir. Oxatan zəhməti sayəsində öz iş prosesindən zövq alacaq. Ancaq həmkarları arasında soyuqluq yaranacaq. Bu mühitə öyrəşmək lazımdır. Ailə münasibətlərində münasibətlər rəvanlaşacaq. Oxatanların maliyyə ehtiyacı olmayacaq. Sağlamlığa diqqət etmək lazımdır.

OĞLAQ



Əmin-amanlıq və dinclik gələcək. İş fəaliyyətində biznes təklifləri olacaq. Məhəbbət iztirabları gözlənilmir. Subay oğlaqlar da öz yarılarını ilin axırına kimi tapacaqlar. İstirahətə də vaxt ayırmaq lazımdır. Yoxsa, gərgin iş rejimi oğlaqlara əsəb və narahatlıq verəcək.

DOLÇA



Enerjili və aktiv olacaqlar. İşdə yaxşılığa doğru dəyişikliklər gözlənilir. Məqsədə doğru getmək lazımdır. Çünki uğurla nəticələnəcək. Tərəfdaşla münasibət yüksələcək. Sağlamlıqda əsasən əsəb sistemini qorumaq lazımdır. Bu il ulduzlar zərərli yağlı qidalar və spirtli içkilərdən uzaq durmağı məsləhət görürlər.

BALIQ



Balıqları sakitlik gözləyir. İşlərinə dəstək olunacaq. Ailə bağlantılarında möhkəmlik, sabitlik hökm sürəcək. Subay balıqların bu il yarılarını tapmaqda yüksək şansları olacaq. Meymun ilində qidalarına diqqət etməlidirlər. Artıq bu ildən düzgün həyat rejiminə və idmana yer verməlidirlər. Balıqlar bu il yaxşı istirahət edərlərsə, bol uğur qazanacaqlar.

Hazırladı: Afət Manafova

YENİ İL ATRİBUTLARI 2016

Şaxta baba və yolka

♦ Yeni ili uşaqların sevimlisi – bu bayramın əsas atributu olan Şaxta babasız təsəvvür etmək mümkün deyil. Saç-saqqalı tamam ağ, başında qardan papaq olan bu mehriban qoca dünyanın müxtəlif yerlərində fərqli adlarla tanınır: Sant Nikolas, Nikolas of Mariya, Santa Klaus, Pere Noel, müqəddəs ata Kristmas və s.

Bu məşhur obrazın yaranma tarixi əsrlərin dərinliyinə gedib çıxır və onunla bağlı hələ qədim zamanlardan yaranan əfsanə və rəvayətlər zaman keçdikcə dəyişikliklərə uğrayaraq şəkildən-şəklə düşüb. Hazırda bütün dünyada qeyd olunan Yeni il bayramının bir çox ənənələri Miladdan qaynaqlandığı üçün Şaxta baba-Santa Klaus obrazının əsli də xristian dünyasında axtarılır.

Xristian dünyasında Şaxta baba Müqəddəs Nikolay kimi tanınır. Provaslavlar Müqəddəs Nikolayı səyahətçilərin himayədarı hesab edirlər. Katoliklər isə onu kasıblara və uşaqlara yardım edən müqəddəs varlıq kimi təsvir edirlər. Müqəddəs Nikolay sonralar Mərkəzi və Şimali Almaniyada Weinachtsmann – Milad Kişisi, İngiltərədə isə Father Christmams – Miladın Atası adlandırılıb. Avropalı mühacirlərlə Ameruka Birləşmiş Ştatlarınadək gedib çıxan Müqəddəs Nikolay burada artıq Santa Klausa çevrilib. Şimali Amerika ədəbiyyatında və təsviri sənətində Santa Klaus öz ağ saqqalı, qırmızı kürküylə 8 maral qoşulmuş arabasında milad gecəsi peyda olaraq sobaların borusundan evlərə daxil olur və sobanın yanından asılmış corabların içinə uşaqlar üçün hədiyyələr qoyur.

Yeni il bayramını al-əlvan, bərli-bəzəkli yolkasız da təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu şam ağacı təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa daha gözəl olardı. Amma təbiəti qorumaq xatirinə süni şam ağacları ilə də keçinmək olar. Bəs Yeni il bayramında yolka bəzəməyin mənası nədir?

Çoxları şam ağacları bəzəmək ənənəsini xristian dini ilə əlaqələndirir. Əslində, həyat rəmzi sayılan şam ağacının bəzənməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hər hansı bir dinlə bağlı deyil. Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirərdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi.

Romalılar isə əkin Allahının şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya - Amerikaya yolkanı burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. Beləcə şam ağacı bütün dünyada məşhurlaşıb.

DÜNYADA YENİ İL 2016

Yeni uğurlar, xoşbəxtlik arzusu ilə...

♦ Hər il dünyanın hər yerində insanlar Yeni ili eyni ümidlərlə – möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləyirlər. Bu bayram gününün ilk dəfə qeyd edildiyi tarix haqqında isə hələ indiyə qədər dəqiq məlumat yoxdur. Bəzi fərziyyələrə görə, Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu, qədim germanlar və romalıların adı ilə bağlanır. Başqa bir mənbə isə ilin dəyişməsini bayram etmək adətinin ilk dəfə qədim Mesopotamiyada yarandığını bildirir...

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə - xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də, bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır.

Yeni il **Rusiyada** ən çox sevilən bayramdır. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər isə səadət, xoşbəxtlik gözləyir. Bu ənənənin əsası 300 il bundan əvvəl I Pyotrun əmri ilə qoyulub. Rusiyada Yeni il gecəsi süfrəyə müxtəlif dadlı yeməklər, salatlar, piroqlar qoyulur. İnanca görə, bayram süfrəsi nə qədər zəngin və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Bayram axşamı xəmirdən müxtəlif heyvan fiqurları bişirib gələn qonaqlara paylamaq da qədim adətdir. Amma bayram süfrəsinə quş ətindən heç nə qoyulmaz. Çünki onlar hesab edir ki, evdən xoşbəxtlik uça bilər. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar, ayaqqabı almaq imkanı olsun. Yeni il qabağı hamı çalışır ki, bütün borcları qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacağı atır, pəncərə və güzgülər parıldayana qədər silinir. Həmçinin müxtəlif karnavallar, ballar təşkil olunur, hamı səhərə kimi rəqs edir.

Yaponlar ilin sonuncu günündə "Oshogatsu" festivalı keçirirlər. Yaponiyada evlər təmizlənir və müqəddəs sayılan əşyaların köməyi ilə oradakı pis ruhlar qovulur. Dekabrın 31-də insanlar dileklərini taxta lövhələrə yazaraq həyətdə ipdən asırlar. Həmçinin Yaponiyada budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

Şotlandlar isə Yeni il gecəsi məşəl yandırır, pis ruhları qovmaq üçün əllərində gəzdirirlər. Onlar bayram gecəsi edilən evlilik təklifinin uğursuzluq gətirəcəyinə, yeni ildə evə ilk girən şəxsin isə özü ilə uğur və ya kədər gətirəcəyinə inanırlar. Əgər bu adam tünd saçlı və əli hədiyyəlidirsə, ev sahibləri onları qarşıda uğurlu il gözlədiyinə inanırlar.

Zəngin və qədim adət-ənənələri olan **Hindistanda** Yeni il fərqli şəkildə qeyd edilir. Bu bayramın zənginlik və gözəl bir gələcək gətirəcəyinə inandıqları tanrıya ibadət etmək və hər yerdə işıqlar yandırmaq hindlilərin adətidir.

Yeni il gecəsi **Fransanın** küçələrində maskarad kostyumunda olan çoxlu insan görmək olar.

İtaliyada isə il təhvil olanda küçələrdə adamlar çox ehtiyatlı davranmalıdırlar. Çünki italyanlar Yeni il axşamı lazımsız, köhnə əşyaları, hətta mebelləri belə pəncərələrdən küçəyə tullayırlar.

Kubada Yeni il axşamı hamının süfrəsində mütləq üzüm olmalıdır. Hər kəs saatın zəngləri gecə yarısını vurduqda on iki gilə üzüm yeməlidir. Bu, o deməkdir ki, ilin on iki ayında sənin həyatın üzüm kimi şirin olacaq.

Rumıniyada Yeni il süfrəsi üçün içərisi sürprizlərlə dolu kökə bişirmək dəbdir. Yağlı kökənin içərisinə daha çox pul, gümüş üzük, acı istiot qoyurlar. Kimin bəxtinə nə çıxdı, çıxdı. Bəxtinə istiot çıxan adam il boyu ehtiyatla dolanmalıdır ki, acı günlər ondan uzaq olsun. Kökəsindən pul və üzük çıxanları isə xoşbəxtlik gözləyir.

Finlandiyada Yeni il süfrəsi gavalı kiseli və düyü sıyığı olmadan təsəvvür edilmir.

Macarıstanda Yeni il axşamı milli paltar geymiş cavanlar küçələrə çıxıb musiqi çala-çala gəzməyə başlayırlar. Küçələri gəzən cavanlar hansı evin qabağında dayansalar, ev sahibi mütləq onları ləzzətli yeməklərə və şəraba qonaq etməlidir. Macarlar Yeni il süfrəsinə qaz, ördək, toyuq bişirib qoymazlar. Guya Yeni ildə quş əti yeyənin səadəti uçub gedə bilər. Subay qızlar bu adətə daha çox riayət edirlər ki, yeni ildə ərə gedə bilsinlər.

Böyük Britaniyada bayram günü evdə ideal təmizlik və qanunqayda hökm sürməlidir. Gecə düşərkən ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapı bağlanır və evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə, ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisə - çatmaqaş adamın içəri girməsinə qarşı isə o dəqiqə ehtiyat tədbirlər görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özü ilə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, Yeni ildə ailə ocağı daha gur yansın.

Yeni ildə **İslandiyada** kiçiklər öz valideynlərini xeyli təəccübləndirirlər. Bu balaca çoxbilmişlər Şaxta babanın onlara göz qoymasından ehtiyatlanaraq ay boyu özlərini yaxşı aparır, dəcəllik etmirlər. Əks halda, bayram gecəsi sobanın yanına qoyduqları çəkmələrin içində kartof və ya bir parça kömür tapa bilərlər.

Estoniyada yeni il günü yeddi pay yemək qəbul etmək və beləcə bir sonrakı il yeməklərin bolluğunu təmin etmək adətdir. Yeddi nəfərlik yemək yeyən bir adamın yeddi adamın gücünü alacağına da inanılır.

Sadıq QARAYEV

Təsisçi: **“Azərenerji” ASC**
Nəşir: **“Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC**

Redaksiya Heyəti: **E.Pirverdiyev, M.Əsgərov, H.Həsənov, A.Həşimov, İ.Ağasiyev, İ.Məmmədova, R.İbrahimov, X.Nəbiyev, O.İlyasov, Ə.Hüseynov.**

Redaksiyanın ünvanı: AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
Telefonlar: (012) 430-01-20; ***daxili:*** baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. ***E-mail:*** **azerbaycan-ishiqlari@box.az**

“Azərbaycan işıqları” qəzetinin kompüterlərində yığılıb səhifələnir, **“CBS polygraphic production”** mətbəəsində çap olunur. Tiraj: 2000

Baş redaktor:
Elşən ƏLİYEV
Çapa imzalanıb:
30 dekabr 2015-ci il, saat 18.00.